*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

**_______________ *N.C.Xəlilov***

**“___” ____________ *2011–ci il***

*“İPƏK YOLU SIĞORTA”*
*Açıq Səhmdar Cəmiyyətinin*
*İdarə Heyətinin Sədri*

**____________ *N.C.İmanov***

**“___” ___________ *2011–ci il***

# MONTAJ SIĞORTASININ ƏSAS QAYDALARI

**BAKI 2011**

# MONTAJ SIĞORTASININ ƏSAS QAYDALARI

"Montaj sığortasının əsas qaydaları” (bundan sonra mətndə “Qaydalar” adlandırılacaq) Azərbaycan Respublikası qanunlarının və digər normativ-hüquqi aktlarının tələblərinə müvafiq işlənib hazırlanmışdır və “Montaj sığortası" müqaviləsinin (bundan sonra mətndə “sığorta müqaviləsi” adlandırılacaq) ayrılmaz tərkib hissəsidir.

Hazırki Qaydalar üzrə sığorta növü sığorta obyektinə görə əmlak sığortasına aiddir və əmlakın yanğından və digər risklərdən sığortası, ümumi mülki məsuliyyətin sığortası və işin dayanması ilə bağlı risklərdən sığorta siniflərini özündə birləşdirir.

Sığorta obyekti hazırki Qaydalara müvafiq olaraq sığorta hadisəsinin baş verməsi nəticəsində sığorta olunmuş əmlakın itirilməsi (məhv olması) və ona zərər vurulması və Sığortalının mülki məsuliyyətinin yaranması riski ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əmlak mənafeləridir.

Hazırki Qaydalara müvafiq olaraq sığorta predmeti sığorta müqaviləsi üzrə sığotalanan əmlak və həmçinin Sığortalının mülki məsuliyyətidir.

Hazırki Qaydalar, Sığorta şəhadətnaməsi, Sığortalı tərəfindən doldurulmuş ərizə forması və müvafiq əlavələr bütövlükdə bir müqavilə hesab edilir.
Ərizə forması müqavilənin əsası sayılır və sığorta təminatı ərizə formasında Sığortalı tərəfindən göstərilmiş məlumat və ərizə formasında qeyd olunmuş Sığortalının bəyannaməsi əsasında verilir

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

Bu sığorta qaydaları ilə sığorta şəhadətnaməsinə daxil olan əmlaklara, sığorta müddəti ərzində, montaj sahəsində olduqları zaman və inşaat işləri aparılarkən, əvvəlcədən bilinməyən və gözlənilməz səbəblərə görə bütün təsadüfi hadisələr nəticəsində dəyən ziyan və zərərlərə bu sığorta şəhadətnaməsində və bu qaydalarda göstərilən istisnalar nəzərə alınmaqla təminat verilir.

## 2. ƏLAVƏ SIĞORTA HAQQI MÜQABİLİNDƏ SIĞORTA TƏMİNATINA DAXİL EDİLƏN HALLAR

Müqaviləyə Əlavə bağlanması şərti ilə, əlavə sığorta haqqı müqabilində aşağıdakılar sığorta təminatına daxil edilir:

2.1. Montajda istifadə olunan maşın, alət və ləvazimatlar, müvəqqəti tikinti barakları və köməkçi tikililər;

2.2. Üçüncü şəxslərə dəyən zərərlərə görə sığortalının məsuliyyəti;

2.3. Hadisə nəticəsində meydana gəlmiş uçuq və dağıntıların aradan qaldırılması üçün çəkilən xərclər;

2.4. Təminatın əhatə dairəsinə daxil olan səbəblərlə əlaqədar meydana gələn ziyan və zərərlərin tələb etdiyi, hava nəqliyyat vasitələri istisna olmaqla, digər sürətli nəqliyyat vasitələri ilə həyata keçirilən daşıma xərcləri, normadan artıq işləmənin haqları;

2.5. Tətil, lokaut, iğtişaş və xalq hərəkatları və bunlara qarşı görülən inzibati və hərbi tədbirlərin səbəb olduğu bütün növ zərər və ziyanlar;

2.6. Dörd həftədən artıq davam edən sınaq müddətində meydana gələn ziyan və zərərlər.
2.7. İşlərin dayandırılması nəticəsində itirilmiş mənfəət və bununla bağlı digər xərclər.

## 3. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN HALLAR (İSTİSNALAR)

Aşağıdakı hallar sığorta təminatına daxil deyildir:

3.1. Müharibə, hər cür hərbi hərəkətlər, istila, düşmən basqını, vuruşma (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, inqilab, üsyan və bunlara qarşı görülən inzibati və hərbi tədbirlər nəticəsində meydana gələn ziyan və zərərlər;
3.2. Hər hansı nüvə partlayışı, radiasiya və ya radioaktiv çirklənmələr və bunlara qarşı görülən hərbi və inzibati tədbirlər nəticəsində dəyən ziyan və zərərlər;
3.3. Səlahiyyətli orqanların sığortalanmış əmlakdan istifadə etməsi nəticəsində meydana gələn ziyan və zərərlər;
3.4. Montaj ediləcək avadanlıqların daxilində mövcud olan konstruksiya, detal çatışmamazlığı, material azlığı, quraşdırma və montaj səhvləri (bu istisnalar qüsurlu detal və hissələrin təmir və montaj xərclərinə aiddir və bu səbəblər üzündən sığortalanmış digər avadanlıqlarda meydana gələcək ziyan və zərərlərə şamil edilmir);
3.5. Aşınma, korlanma, çürümə və paslanmalar;
3.6. Montaj məqsədilə istifadə olunan maşın, avadanlıq və dəzgahların mexaniki və ya elektrik nasazlığı və ya qırılmaları (bəhs olunan nasazlıq və qırılmaların digər sığortalanmış əmlaklarda meydana gətirəcəyi ziyan və zərərlər təminata daxildir);
3.7. İnventar çatışmazlıqları;
3.8. Sığortalının və ya onun adından fəaliyyət göstərən cavabdeh şəxsin qəsdən hərəkətləri və ya əlavə razılaşma varsa, kobud səhvi (ehtiyatsızlığı);
3.9. Montajı başa çatmış və ya sınaq müddəti bitmiş, eləcə də sifarişçiyə təhvil verilən və ya sifarişçi tərəfindən istifadə olunan hissələrdə birbaşa və ya dolayısı ilə meydana gələn ziyan və zərərlər;
3.10. Montajın gecikməsinə, qismən və ya tamamilə dayandırılmasına, öhdəliyin yerinə yetirilməməsinə, müqavilənin ləğv edilməsinə və ya cəza şərtlərinin tətbiq edilməsinə görə dəyən zərərlər də daxil olmaqla gözlənilən gəlirin itirilməsi, estetik qüsurlar kimi bütün nəticə zərərləri;
3.11. Montaj ilə əlaqədar olan bütün hava, avtomobil və su yolları nəqliyyat vasitələri;
3.12. Nağd pul, qiymətli kağızlar (çek, veksel, səhm, istiqraz və s.) qaimə, sənəd qovluğu, borc iltizamları və hesabat işlərilə əlaqədar bütün mühasibat sənədləri, montaj və qurğulara aid olan plan və layihələr.

Bu bənddə sadalanan bəzi istisnalara, qarşılıqlı razılıq əldə olunarsa, əlavə sığorta haqqının ödənilməsi şərti ilə təminat verilə bilər.

## 4. SIĞORTA TƏMİNATININ MÜDDƏTİ VƏ SIĞORTAÇININ MƏSULİYYƏTİ

Təminat müddəti, sığorta şəhadətnaməsində göstərilən başlanğıc tarixinin əsas olması şərti ilə sığorta şəhadətnaməsinə əlavə olunmuş siyahıda göstərilən avadanlıq və ləvazimatların montaj sahəsinə gətirildiyi andan başlayır və sığorta şəhadətnaməsində göstərilən başa çatma tarixində qurtarır.

Lakin montajın bu tarixdən əvvəl qismən və ya tamamilə başa çatdırılıb sifarişçiyə təhvil verildiyi hallarda, həmin hissələrlə əlaqədar təminat müddəti başa çatmış olur. Bu təminatın əhatə dairəsinə daxil olan və inşaat sahəsinə gətirilən material və avadanlıqlar üçün nəqliyyat (yük) sığortası vardırsa, həmin mallarla əlaqədar təminat, nəqliyyat sığortası başa çatdıqdan sonra başlanır. Təminat müddətinə, sığorta şəhadətnaməsində ayrı razılaşma olmadıqda, dörd həftəlik sınaq müddəti də daxildir.
Sığortalı qurğuların bütövlükdə və ya hər hansı bir hissəsinin sınaqdan keçməsinin başlama tarixlərini ən azı 8 gün əvvəldən Sığortaçıya yazılı olaraq bildirməlidir. Montajın təminat müddəti sığorta şəhadətnaməsində göstərilən tarixdən əvvəl başa çatdıqda sınaq dövrü, müddəti dəyişdirilmədən irəli çəkilir. Ancaq montaj sığortasının təminat müddətinin sığorta şəhadətnaməsində göstərilən müddətdən əvvəl sona çatacağını, sığortalı azı 8 gün əvvəldən Sığortaçıya yazılı şəkildə bildirməlidir.
Sığorta etdirilmiş montaj işləri sığorta şəhadətnaməsində göstərilən tarixdə başa çatmazsa, təminat müddəti, qarşılıqlı razılıq əsasında müəyyən edilən şərtlər və əlavə sığorta haqqı alınmaqla uzadıla bilər.
Sınaq müddəti ərzində görülən iş dörd həftə ərzində sona çatdırılmadığı halda təminat müddəti, qarşılıqlı razılıq əsasında və əlavə sığorta haqqı alınmaqla uzadıla bilər.

## 5. SIĞORTA TƏMİNATININ HÜQUQİ QÜVVƏYƏ MİNMƏ VƏ QÜVVƏDƏN DÜŞMƏ VAXTLARI

Sığorta təminatı, şəhadətnamədə başlanğıc və sona çatma tarixləri kimi göstərilən günlərdə, tərəflərin başqa cür razılaşmadıqları hallar üçün, saat 24.00-da hüquqi qüvvəyə minir və vaxtı qurtardığı zaman saat 24.00-da hüquqi qüvvəsini itirir.

## 6. SIĞORTALININ MƏLUMAT VERMƏ VƏZİFƏLƏRİ

6.1. Sığortaçı, bu sığorta müqaviləsini, Sığortalının riskin mahiyyətini tam bildirməsi şərtilə ərizə formasında, sığorta şəhadətnaməsində və ya onun əlavələrində yazdığı məlumatına əsasən bağlayır.

Sığortalının məlumatının yalan və yaxud yarımçıq olması hallarında Sığortaçı sığorta müqaviləsini imzalamaya bilər və ya:

6.1.1. Sığortalı bunu qəsdən etmişdirsə, Sığortaçı vəziyyəti öyrəndikdən sonra 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə müqaviləyə xitam verə bilər və bu müddət ərzində bir hadisə baş verərsə, buna görə sığorta ödənişi verməyə bilər.

6.1.2. Sığortalı bu hərəkəti bilmədən etmişdirsə, və vəziyyət hadisə baş verməmişdən əvvəl məlum olarsa, Sığortaçı vəziyyəti öyrəndikdən sonra30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə müqaviləyə xitam verə bilər və ya risqin ağırlaşma dərəcəsinə uyğun olaraq həmin vaxt üçün müəyyən edilən sığorta haqqı fərqini almaqla müqaviləni davam etdirə bilər.

Sığortaçı tərəfindən tətbiq olunan xitam vermə, Sığortalıya sifarişli məktub vasitəsilə məlumat göndərildiyi tarixdən 30 gün sonra, saat 24.00-da hüquqi qüvvəyə minir və istifadə olunmayan müddətin sığorta haqqı üçün aşağıdakı şərtlər tətbiq edilir;

- müqaviləyə, əsas montaj müddəti ərzində xitam verilərsə, istifadə olunmayan müddətə aid sığorta haqqı gün əsası ilə hesablanaraq geri 

qaytarılır. Bundan başqa, dörd həftədən artıq davam edən sınaq müddəti təminatı vardırsa, bu müddətə aid sığorta haqqı tamamilə geri qaytarılır.

- müqaviləyə, dörd həftəlik sınaq müddəti ərzində xitam verilərsə, bu müddətə aid sığorta haqqından heç bir hissə geri qaytarılmır.
- müqaviləyə dörd həftədən artıq olan sınaq müddəti ərzində xitam verilərsə, sınaq müddətinə daxil olan aya aid sığorta haqqı geri qaytarılmır, sonrakı ayların sığorta haqqı tamamilə geri qaytarılır.

6.2. Vaxtında istifadə olunmayan, ləğv etmə və ya sığorta haqqının fərqini tələb etmək hüququ etibarsız sayılır.

6.3. Sığortalının hərəkətində heç bir qəsd müəyyən edilmədiyi hallarda sığorta hadisəsi:

- Sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl;
- Sığortaçı müqaviləni ləğv etməyi tələb edə biləcəyi müddət ərzində;
- və yaxud ləğv etmənin hüquqi qüvvə qazanması üçün lazım olan müddət ərzində baş verərsə, onda Sığortaçı, sığorta ödənişini, Sığortalının məlumatına əsasən hesablanan sığorta haqqı ilə həqiqətdə ödənməli olan sığorta haqqı arasındakı nisbətə uyğun olaraq ödəyir.

## 7. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ TƏRƏFLƏRİN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

Sığorta müqaviləsi üzrə tərəflərin hüquq və vəzifələri Azərbaycan Respublikasının qüvvədə olan qanunverijiliyi ilə, hazırkı qaydalar və sığorta müqaviləsinin şərtləri ilə tənzim edilir.

7.1. Sığortalının vəzifələri:

a) Sığorta müqaviləsinin bütün şərtlərinin gözlənilməsi;

b) Sığorta müqaviləsi bağlanarkən, sığorta riskini qiymətləndirmək üçün əhəmiyyət kəsb edən və ona məlum olan təfərrüat barədə, və həmçinin, hər bir obyektə münasibətdə bağlanmış və ya bağlanan bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;

c) müqavilənin qüvvədə olduğu müddətdə sığortalanmış montaj işlərinin, material, ləvazimat, qurğu və maşınların təhlükəsizliyi və qorunması üçün, və həmçinin, sığortalanmış əmlaka dəyən ziyanın qarşısını almaq və ya azaltmaq üçün bütun tədbirləri görmək;

ç) sığorta haqqını vaxtında ödəmək.

d) Sığorta müqaviləsi üzrə hüquq və vəzifələr Sığortalı tərəfindən tam və ya qismən üçüncü tərəfə verilə bilməz, burada Sığortalının yazılı formada təsdiq edilmiş razılığı olduğu hal istisna təşkil edir.

e) Müqavilə imzalandıqdan sonra sığorta olunmuş əmlakın ərizə formasında, sığorta şəhadətnaməsində və ya onun əlavələrində göstərilən yeri və ya vəziyyəti Sığortaçının razılığı olmadan dəyişdirilərsə, Sığortalı bu haqda əgər dəyişiklik:

- özü tərəfindən və ya onun razılığı ilə başqa birisi tərəfindən həyata keçirilərsə, dərhal;
- özünün razılığı olmadan başqa şəxs tərəfindən həyata keçirilərsə, vəziyyəti öyrənən kimi, dərhal, hər iki halda ən geci 8 gün ərzində Sığortaçıya məlumat verməlidir.

7.2. Sığortalının hüquqları:

a) Azərbayjan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada sığorta müqaviləsinə xitam vermək;

b) Sığorta müqaviləsini (Sığorta Şəhadətnaməsini) itirdiyi halda onun yeni nüsxəsini (dublikatını) almaq;

c) Sığorta hadisəsinin qarşısı alınması və dəyə biləcək zərərin azalması üçün zəruri olan məlumat və məsləhətləri Sığortaçıdan almaq;

7.3. Sığortaçının vəzifələri:

a) Sığortaçı, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortalı haqqında və onun əmlak vəziyyəti haqqında məlumatı yaymamağa borcludur.

b) Sığortalıya Sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsinin nüsxəsini vermək və Sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;

c) Sığortalıdan hadisə haqqında məlumat daxil olduqda baş vermiş hadisənin səbəblərini, xarakterini araşdırmaq, dəymiş zərərin miqdarını və ya ödəniləcək məbləği müəyyən etmək, və nəticədə hadisəni sığorta hadisəsi kimi tanıdıqda və ödənişin verilməsindən imtina üçün əsaslar olmadıqda müqavilə ilə müəyyən edilmiş müddət ərzində və qaydada sığorta məbləği(ləri) çərçivəsində sığorta ödənişini vermək;

ç) Sığorta ödənişinin verilməsindən imtina üçün əsaslar olduqda bu barədə Sığortalıya, səbəbləri göstərilməklə, yazılı şəkildə məlumat vermək;

d) Sığortalı tələb etdikdə, sığorta müqaviləsinin (Sığorta Şəhadətnaməsinin) və sığortanı təsdiqləyən digər sənədlərin yeni nüsxəsini (dublikatını) təqdim etmək;

e) Sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini yerinə yetirmək.

7.4. Sığortaçının hüquqları:

a) Sığortalanmış əmlakın ərizə formasında, sığorta şəhadətnaməsində və ya onun əlavələrində göstərilən yerinin və ya vəziyyətinin dəyişməsini öyrənmiş Sığortaçı, 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə müqaviləyə xitam verə və ya, sığorta haqqı fərqini tələb etməklə müqaviləni davam etdirə bilər. Sığortalı, sığortalanmış əmlakın yerinin və ya vəziyyətinin riskin başvermə ehtimalını artıracaq formada dəyişidirilməsini xəbərdarlıq müddəti ərzində qəsdən bildirməzsə, xəbərdarlıq müddəti başa çatdıqdan sonra baş verən hadisələrlə əlaqədar Sığortaçı tərəfindən sığorta ödənişi verilmir; xəbərdarlıq qaydaları qəsdən pozulmamışdırsa, alınan sığorta haqqı ilə alınmalı olan sığorta haqqı arasındakı fərq hadisəyə görə ödənilməsi nəzərdə tutulan sığorta ödənişindən çıxılır. Dəyişiklik, hadisə baş verməsinin qarşısının alınmasına kömək edərsə və daha az sığorta haqqı alınmasını tələb edərsə, Sığortaçı bu dəyişikliyin baş verdiyi tarixdən başlayaraq müqavilənin başa çatmasına qədər olan müddət üçün sığorta haqqı fərqini gün hesabı əsas götürməklə hesablayır və bu fərqi Sığortalıya qaytarır. Bu şərtlər Sığortalıya də eyni qaydada tətbiq edilir.

b) Sığortalının verdiyi informasiyanın, və həmçinin, Sığortalı tərəfindən sığorta müqaviləsinin tələblərinin yerinə yetirilməsinin yoxlanması.

c) Sığortaçının, istədiyi vaxt səlahiyyətli nümayəndəsi vasitəsilə sığorta etdirilmiş bina və qurğulara nəzarət etmək və onları yoxlamaq səlahiyyəti vardır. Sığortalı bu yoxlamalara icazə verməyə və kömək etməyə borcludur.

## 8. SIĞORTA HAQQI VƏ ONUN ÖDƏNİLMƏSİ QAYDASI

8.1. Sığorta haqqının ölçüsü Sığortalı tərəfindən qüvvədə olan tarif dərəcələri, müqavilənin qüvvədə olma müddəti və digər faktorlarla müvafiq olaraq seçdiyi sığorta şərtləri əsasında müəyyən edilir. Sığortaçı sığorta haqqının ölçüsünü müəyyən edir və Sığortalıya müvafiq məbləğdə hesab təqdim edir və ödəniş müddətini göstərir.

8.2. Sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.Sığorta haqqının ikinci və sonrakı hissələri vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

8.3. Sığortalı öz tərəfindən sığorta haqlarının ödənildiyini sübut edən sənədləri saxlamalı və onları Sığortaçının tələbi ilə təqdim etməlidir.

Əgər sığorta haqlarını Sığortalının tapşırığı ilə başqa bir şəxs ödəyirsə, həmin şəxs bununla əlaqədar olaraq Sığorta müqaviləsi üzrə heç bir hüquq əldə etmir.

## 9. SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA HAQQININ MÜƏYYƏN EDİLMƏSİ

9.1. Sığorta şəhadətnaməsində göstərilən sığorta məbləği:
- montaj ediləcək dəzgah, qurğu və materialların (əgər varsa, gömrük, vergi, rüsum xərcləri, eləcə də nəqliyyat və montaj xərcləri də daxil olmaqla) dəyərindən və;
- ayrıca olaraq sığorta edilibsə, montaj işlərində istifadə olunan maşın, alət və ləvazimatlar, müvəqqəti montaj barakları və köməkçi tikililərin həmin dövrdəki bazar qiymətindən az və ya çox ola bilməz.

9.2. Sığorta şəhadətnaməsində göstərilən sığorta məbləğini təşkil edən əmlakların qiymətləri artarsa, sığorah, bu artımın baş verdiyini maksimum 5 gün ərzində və hadisə baş verməmişdən əvvəl yazılı şəkildə Sığortaçıya bildirməlidir.

## 10. SIĞORTA HADİSƏSİ BAŞ VERDİYİ ZAMAN SIĞORTALININ VƏZİFƏLƏRİ

Sığorta hadisəsi baş verdiyi zaman Sığortalı:

10.1. Hadisənin baş verdiyini öyrəndikdən sonra dərhal və ya ən geci 3 gün ərzində sığortaçıya məlumat verməlidir;

10.2. Müvafiq mühafizə və xilasetmə tədbirlərini həyata keçirməli və bu məqsədlə Sığortaçı tərəfindən ona verilmiş təlimatlara, imkan daxilində, maksimum əməl etməlidir;

10.3. Hadisənin səbəbini, hansı şəraitdə və şərtlər daxilində baş verdiyini öyrənmək, zərər və ziyanın məbləğini müəyyən etmək üçün lazım olan və sığortalı tərəfindən təmin edilməsi mümkün olan məlumat və sənədləri (əsli, təsdiq edilmiş surət və ya kserosurəti) sığortaçının tələbinə əsasən dərhal ona verməli və zərərin təqsirkar üçüncü şəxs tərəfindən ödənilməsi hüququndan istifadə olunması üçün lazım olan, qoruna bilən, müvafiq məlumat və sənədləri verməlidir.

10.4. Ziyan və zərərin təxmini məbləğini bildirən bir məlumatı münasib vaxt ərzində Sığortaçıya verməlidir;

10.5. Hadisənin baş verdiyi yer və əmlaklarda, zəruri hallar istisna olmaqla heç bir dəyişiklik olunmamasını təmin etməlidir;

Sığortalı yuxarıdakı şərtlərə uyğun olaraq Sığortaçıya məlumat verdikdən sonra montaj işinin ləngiməməsi məqsədi ilə kiçik həcmli təmir işlərini (ayrıca, təmir etmə haqda xəbərdarlığın verilməsi şərti ilə), sığortaçının səlahiyyətli nümayəndələrinin gəlməsini gözləmədən həyata keçirə bilər.

Sığortaçı zərərin baş verməsi ilə əlaqədar xəbəri aldıqdan sonra 7 gün ərzində ekspertlərini hadisə yerinə göndərməzsə, Sığortalı heç bir şərtə əməl etmədən zərərə uğramış hissənin təmirinə başlaya bilər.

10.6. Sığortaçının səlahiyyətli nümayəndələrinin ödəniş cavabdehliyi və məbləğini, zərərin təqsirkar üçüncü şəxslər tərəfindən ödənilməsi hüququnu müəyyən etmək üçün sığorta olunmuş yer və əmlaklarda, bunlarla əlaqədar sənədlər üzərində aparacaqları yoxlama və tədqiqatlara icazə verməlidir;

10.7. Sığorta olunmuş əmlaklar, eyni risklər və müddət üzrə başqa bir sığorta şirkətində də sığorta olunmuşsa, bunu Sığortaçıya bildirməlidir.

## 11. SIĞORTA ÖDƏNİŞİNİN AZALDILMASI VƏ ÖDƏNİLMƏSİNDƏN İMTİNA EDİLMƏSİ ÜÇÜN ƏSASLAR

Sığortalı, sığorta hadisəsi baş verdiyi zaman öz vəzifələrini yerinə yetirməzsə və bunun nəticəsində də zərərin miqdarı artarsa, sığortaçının verəcəyi ödəniş göstərilən səbəbə görə artan vəsait həcmində azaldılır.

Sığortalı hadisənin baş verməsinə qəsdən şərait yaradarsa və ya qəsdən zərərin həcmini artıran hərəkətlər edərsə, Sığortaçı sığorta ödənişinin verilməsindən imtina etmək hüququnu əldə edir.

## 12. ZƏRƏRİN MÜƏYYƏN EDİLMƏSİ

12.1. Sığorta ödənişi sığorta müqaviləsinə müvafiq olaraq Sığortalının yazılı ərizəsinə və sığorta hadisəsinin baş vermə faktını, dəymiş maddi zərərin məbləğini təsdiq edən sənədlərə, sığorta aktına və zərərin qiymətləndirilməsi barədə sənədə əsasən Sığortaçı tərəfindən ödənilir.

Sığortalı dəymiş zərərin məbləğini müəyyən etmək üçün layihə-smeta sənədlərini, inşaat kitablarından çıxarışı, hesab- fakturaları Sığortaçıya təqdim etməlidir.

Tərəflər zərərin məbləği ilə bağlı razılığa gələ bilmədikləri təqdirdə, zərərin məbləği, bu sahə üzrə mütəxəssis mühəndislər arasından seçilmiş ekspert tərəfindən müəyyən edilir.

12.2. Tərəflər, eksperti birlikdə seçmək haqqında razılığa gələ bilməzlərsə, onda hər biri ayrılıqda öz ekspertini seçir və bunu digər tərəfə bildirir. Tərəflərin ekspertləri seçildikləri tarixdən etibarən 7 gün ərzində, hadisə ilə əlaqədar tədqiqata başlamazdan əvvəl, üçüncü bitərəf eksperti seçirlər. Bitərəf ekspertin, yalnız tərəflərin ekspertlərinin razılığa gələ bilmədikləri məsələlər haqqında rəy vermək səlahiyyəti vardır. Bitərəf ekspert öz rəyini, ayrıca və ya tərəflərin ekspertlərilə birlikdə bildirə bilər. Ekspert rəyləri tərəflərə eyni vaxtda təqdim olunur.

12.3. Ekspert rəylərində aşağıda göstərilməlidir:

-həm hər bir hissə üçün müəyyən ediləcək ziyan və zərərin məbləği, həm də ziyan və zərərin bilinən və ya müəyyən edilən səbəbi;

-zərərə uğramış əmlakın, hadisənin baş verdiyi tarixdən 1 gün əvvəlki həqiqi dəyəri və bərpa xərcləri;

-təmir və ya başqa hallar üçün istifadə oluna bilinəcək uçuq və dağıntıların həcmi və dəyəri.

12.4. Tərəflərdən hər hansı biri, digər tərəf məlumat verdiyi tarixdən etibarən 15 gün ərzində öz ekspertini təyin etməzsə, yaxud tərəflərin seçdiyi ekspertlər, üçüncü bitərəf ekspertin seçilməsi ilə əlaqədar təyin olunduqları tarixdən etibarən 7 gün ərzində razılığa gələ bilməzlərsə, tərəflərin ekspertləri və ya bitərəf ekspert tərəflərdən birinin təklifi ilə, zərərin baş verdiyi ərazidə yerləşən, iqtisad mübahisələrinə baxmağa səlahiyyəti olan məhkəmə tərəfindən mütəxəssis şəxslər arasından seçilir;

12.5. Tərəflərin, bitərəf ekspertin (bu ekspert istər tərəflərin ekspertləri, istərsə də səlahiyyətli məhkəmə tərəfindən seçilmiş olsun) sığortaçının və ya sığortalının yaşadığı və ya hadisənin baş verdiyi ərazidən kənardan seçilməsini tələb etmək hüququ vardır və bu tələb yerinə yetirilməlidir;

12.6. Ekspert vəfat edərsə, vəzifəsindən istefa verərsə və ya rədd edərsə, onun əvəzinə eyni şərtlərlə başqa ekspert seçilir və hadisənin tədqiqi yarımçıq qaldığı yerdən davam etdirilir.

12.7. Sığortalının vəfat etməsi, təyin edilmiş eksperti vəzifə məsuliyyətindən azad etmir.
Ekspertin iş qabiliyyəti ilə əlaqədar etiraz, bu şəxslərin təqdim olunduqları tarixdən etibarən 7 gün ərzində bildirilməlidir. Bu vaxt başa çatdıqdan sonra etiraz hüququ qüvvədən düşür.

12.8. Ekspertlər öz tədqiqatlarında tam sərbəstdirlər. Onların hüquqları qanun və qərarlarla da məhdudlaşmır;

12.9. Ziyan və zərərin məbləği müəyyən edildiyi zaman, ekspertlər lazım bildikləri dəlilləri, zərər çəkmiş Sığortalı əmlakın və onun dəyərinin müəyyən edilməsi üçün lazım olan qeydləri və sənədləri tələb edə və yerində tədqiqatlar apara bilərlər;

12.10. Tərəflərin ekspertlərinin, yaxud üçüncü ekspertin, zərərin məbləği ilə əlaqədar verəcəkləri rəy qətidir və tərəflər buna əməl etməlidirlər. Sığortalı ekspert rəyi olmadan Sığortaçıdan ödəniş tələb edə bilməz və ona qarşı iddia qaldıra bilməz.
Ekspertin rəylərinə, yalnız onun real vəziyyətindən açıq-aşkar fərqləndiyi zaman etiraz edilə bilər və bu rəyin ləğv edilməsi, rəyin elan olunduğu tarixdən etibarən bir həftə ərzində hadisənin baş verdiyi ərazidə yerləşən iqtisad mübahisələrini həll etməyə səlahiyyəti olan məhkəmələr tərəfindən həyata keçirilə bilər.

12.11. Tərəflər, ödəniş məbləği ilə əlaqədar razılığa gələ bilməzlərsə, bu məbləğ yalnız ekspertin rəyi ilə müəyyən edilir və müddət rəyin tərəflərə bildirildiyi tarixdən başlayaraq hesablanır;

12.12. Tərəflərin hər biri öz seçdiyi ekspertin haqqını özü ödəyir. Üçüncü bitərəf ekspertin haqqını tərəflər birlikdə ödəyirlər;

12.13. Ziyan və zərər məbləğinin müəyyən edilməsi, təminat verilən risklər, sığorta məbləği, sığorta haqqı, əmlakın dəyərindən artıq və ya əksik olan sığorta, sığorta məsuliyyətinin başlaması, hüquqları ləğv edəcək və məhdudlaşdıracaq səbəblərlə əlaqədar sığorta şəhadətnaməsində və qanunvericilikdə göstərilən hökm və şərtlərə və onların tətbiq edilməsinə təsir etmir.

## 13. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI

Sığorta ödənişinin məbləği, sığorta şəhadətnaməsində göstərilən sığorta məbləğindən və bütün hallarda ümumi sığorta məbləğindən çox olmamaq şərti ilə aşağıdakı şərtlər daxilində müəyyən edilir.

13.1. Montaj işi ilə əlaqədar olan dəzgah, material və işlərdə:

13.1.1. Qismən zərər halında:
Sığorta ödənişinin məbləği, sığorta olunmuş əmlakların hadisə baş verdiyi tarixdən bir gün əvvəlki vəziyyətinə gətirilməsi üçün tələb olunan xərclərin məbləği qədərdir. Bu xərclərə ehtiyat hissələrinin dəyəri, iş və nəqliyyat xərcləri, əgər varsa kömrük, vergi və rüsum xərcləri də daxildir. Ancaq bu cür ödəmələrin məbləği sığorta olunmuş əmlakların zərərin baş verdiyi tarixdən bir gün əvvəlki ümumi dəyərindən çox ola bilməz. Sığorta ödənişi məbləğindən əgər varsa, azadolma məbləği (ödəniş məsuliyyətindən azadolma nisbəti) çıxılır.

13.1.2. Əmlak tam məhv olduqda:
Sığorta ödənişinin məbləği sığorta olunmuş əmlakların zərərin baş verdiyi tarixdən bir gün əvvəlki dəyərinə bərabərdir. Sığorta ödənişin məbləğindən əgər varsa, azadolma məbləği (ödəniş məsuliyətindən azadolma nisbəti) çıxılır.

13.1.3. İstifadə olunmuş əmlaklar zərərə uğradıqda:

Ödənişin məbləği yuxarıdakı qaydada hesablanır və yeni qoyulan hissələrlə əlaqədar köhnəlmə nisbəti nəzərə alınır.

13.2. Əlavə razılaşma ilə sığorta təminatı verilən hallarda:

13.2.1. Montaj işləri üçün istifadə olunan dəzgah, alət və materiallarda: Zədələnmə halında:

Sığorta ödənişinin məbləği, əgər varsa, kömrük, vergi və rüsum ödəmələri də daxil olmaqla, ehtiyat hissələrinin dəyərinə, nəqliyyat xərclərinə, sökülmə və quraşdırılma üçün çəkilən xərclərə uyğun olaraq müəyyən edilir. Yeni ehtiyyat hissələri alınarsa, bu zaman köhnə və yeni ehtiyyat hissələri arasında qiymət fərqi nəzərə alınır. Sığorta ödənişin məbləğindən, əgər varsa, azadolma çıxılır. Əmlak tam məhv olduqda:

Sığorta ödənişinin məbləği sığorta olunmuş əmlakların zərərin baş verdiyi tarixdən 1 gün əvvəlki dəyərinə bərabərdir. Sığorta ödənişi məbləğindən, əgər varsa, azadolma məbləği çıxılır.

13.2.2. Uçuq və dağıntıların aradan qaldırılması üçün çəkilən xərclər.

Sığorta ödənişinin məbləği zərərin baş verdiyi ərazinin təmizlənməsi üçün çəkilən xərclərdən ibarətdir və onun maksimum həddi sığorta şəhadətnaməsində göstərilir.

13.2.3. Sürətli nəqliyyat vasitələri ilə həyata keçirilən daşınma xərcləri və normadan artıq işləmələrin haqları:

Sığorta ödənişin məbləği bu məqsədlə çəkilən xərclərdən ibarətdir və onun maksimum həddi sığorta şəhadətnaməsində göstərilir.

13.3. Zədələnmə halında həyata keçirilən müvəqqəti təmir xərcləri, tam təmir xərclərini azaldarsa, bu xərclər Sığortaçı tərəfindən qəbul edilir.

13.4. Zədələnmə halında 13.1. bəndində göstərilən şərtlərə uyğun olaraq hesablanan sığorta ödənişinin məbləği sığorta etdirilmiş əmlakın baş verdiyi tarixdən bir gün əvvəlki dəyərindən çox olarsa, sığorta ödənişi tam məhv olma ilə əlaqədar 13.2. bəndində göstərilən şərtlərə uyğun olaraq ödənilir.

13.5. Zərər zamanı sığorta məbləğinin əmlakın sığorta dəyərindən az olduğu müəyyən edilərsə, sığorta ödənişi, sığorta məbləği ilə sığorta edilməsi tələb olunan məbləğ arasındakı nisbətə uyğun olaraq ödənilir.

## 14. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ

14.1. Sığortaçı, hadisə nəticəsində zərər çəkmiş əmlakı təmir etdirə, yenisi ilə əvəz edə və ya dəymiş zərərin məbləğini nağd pulla ödəyə bilər.

14.2. Müştərək sığorta zamanı, ödəniş bu sığorta şəhadətnaməsinin şərtlərinə uyğun olaraq müəyyən edildikdən sonra, Sığortaçı, ümumi sığorta haqlarında özünün iştirak nisbətə uyğun olaraq ödənişi verir.

Ancaq sığorta şəhadətnamələri arasında xüsusi mahiyyət və şərtlərə malik olanları vardırsa, Sığortaçıların ödəniş payları müəyyən edilərkən bu hallar və öhdəliklərin şərtləri nəzərə alınır.

14.3. Sığortalanmış əmlaklardan müəyyən hissəsinin zədələnməsi zamanı zərər həmin hissəyə aid olan sığorta məbləği həcmində ödənilir və sığorta müddəti ərzində zədələnməyə görə veriləcək ödənişlərin ümumi məbləği, həmin hissəyə aid ümumi sığorta məbləğindən çox ola bilməz.

14.4. Sığorta ödənişi 15 gün ərzində həyata keçirilir. Qeyd edilən müddət bu qaydaların 13.1-ci bəndində göstərilən sənədlərin təqdim edilməsindən sonra, ekspertiza keçirildikdə isə ekspertin yekun qərarından sonra hesablanır.

## 15. ZƏRƏR VƏ ÖDƏNİŞİN SONA ÇATMASI

15.1. Sığortaçı sığorta ödənişinin məbləği müqabilində Sığortalının günahkar şəxslərə qarşı iddia qaldırmaq hüququna sahib olur. Sığortaçı hər hansı bir iddia irəli sürərsə, bu iddia məsələsini aydınlaşdırmaq üçün lazım olan və əldə edilməsi mümkün olan sənədləri və məlumatları Sığortalı ona mütləq təqdim etməlidir.

15.2. Sığorta hadisəsinin baş verməsi nəticəsində əmlak tam məhv olarsa, sığorta təminatı sona çatmış hesab olunur. Zədələnmə halında isə, sığorta məbləği, hadisə baş verdiyi tarixdən etibarən, verilən ödəniş məbləği qədər azaldılır.

15.3. Sığorta məbləği, sığorta şəhadətnaməsində müxtəlif vahidlər (növ və qrup) halında göstərilərsə və bu vahidlərdən (növ və ya qruplardan) biri və ya bir neçəsi tamamilə zərərə uğrayarsa, həmin vahidlərə (növ və ya qruplara) aid olan sığorta təminatı hadisənin baş verdiyi tarixdə sona çatar. Zədələnmə halında isə hər bir vahid (növ və ya qrup) üçün müəyyən edilmiş sığorta məbləği, zərərin baş verdiyi tarixdən etibarən, verilmiş sığorta ödənişinin məbləği qədər azaldılır.

15.4. Sığorta məbləğinin azalması hallarında, hadisənin baş verdiyi tarixdən etibarən gün hesabı əsas götürülməklə və əlavə sığorta haqqı alınmaq şərtilə sığorta məbləği əvvəlki həcminə qədər artırıla bilər.

## 16. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

Bu müqavilə həm Sığortaçının, həm də Sığortalının 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə xitam edilə bilər. Yazılı xəbərdarlıq tərəflərin müqavilədə göstərilən ünvanlarına göndərilməlidir.

16.1. Müqavilənin Sığortaçının təşəbbüsü ilə xitam olunması halında, Sığortaçı Sığortalının sığorta haqlarını bütünlükdə qaytarır; əgər bu tələb Sığortalının sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını qaytarır.

16.2. Müqavilənin Sığortalının təşəbbüsü ilə xitam olunması halında, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını Sığortalıya bütünlüklə qaytarır.

16.3. Sığorta mğqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan zox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

16.4. Sığorta mğqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqə məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydalarin 16.1-ci və 16.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 17. MƏLUMAT VƏ XƏBƏRDARLIQLARIN ÇATDIRILMASI

17.1. Sığortalıtın məlumat və xəbərdarlıqları, Sığortaçıya və ya sığorta müqaviləsinin imzalanması işinə vasitəçilik edən agentliyə sifarişli məktub vasitəsi ilə bildirilir.

17.2. Sığortaçının məlumat və xəbərdarlıqları Sığortalının sığorta şəhadətnaməsində göstərilən ünvanına, bu ünvan dəyişmişsə Sığortaçıya və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentliyə bildirilən son ünvana, eyni formada çatdırılır.

17.3. Tərəflərə, imza müqabilində şəxsən təqdim edilən məktublar və ya teleqramlar vasitəsilə bildirilən məlumat və xəbərdarlıqlar da sifarişli məktub vasitəsilə bildirilən məlumat və xəbərdarlıqlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

17.4. Hadisənin baş verməsi və ya təmir işlərinə başlanması ilə əlaqədar məlumatlar mütləq qabaqcadan sifarişli məktub vasitəsilə bildirilməlidir.

17.5. Müqavilə tərəfləri bir birinə yolladığı bildiriş və xəbərdarlıqlara dair aşağıdakı tələblərə riayət etməlidir:

a) müqaviləyə müvafiq olaraq göndərilən hər hansı məlumat, bildiriş, xəbərdarlıq və ya razılıq yazılı şəkildə tərtib olunmalı və şəxsən, qabaqcadan ödənilmiş poçt və ya kuryer (çatdırma barədə bildiriş ilə), faks və ya teleks vasitəsi ilə müqavilədə göstərilmiş ünvanlara göndərilməlidir.

b) Tərəflərin ünvanları və/və ya rekvizitləri dəyişdiyi halda onlar bir birinə bu barədə əvvəlcədən məlumat göndərməlidirlər. Əgər sığorta müqaviləsi üzrə tərəf digər tərəfin ünvan və ya rekvizitlərinin dəyişməsi barədə məlumatlandırılmayıbsa, keçmiş ünvana göndərilən bütün bildiriş və xəbərdarlfqlar keçmiş ünvana çatdırıldığı andan qıbul olunmuş hesab olunurlar.

## 18. KOMMERSİYA VƏ İŞ SİRRLƏRİNİN QORUNMASI.

Sığortaçı, sığortalıya aid öyrənəcəyi bütün kommersiya və iş sirrlərini gizli saxlamaması səbəbindən ona dəyəcək zərərə görə məsuliyyət daşıyır.

## 19. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

19.1. Sığorta müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tərtib edilib və tərəflərlə lazımı qaydada yerinə yetirilməlidir.

19.2. Sığorta müqaviləsi üzrə tərəflərdən biri müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirmədikdə və yaxud lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq digər tərəfə vurduğu ziyanın əvəzini ödəməlidir.

19.3. Sığorta müqaviləsinə əsasən tərəflərdən heç biri o biri tərəfin yazılı razılığı olmadığı halda öhdəliklərini üçüncü tərəfə vermək hüququna malik deyil.

## 20. ƏRİZƏ FORMASI

20.1. Sığorta müqaviləsi Sığortalı tərəfindən doldurulmuş ərizə Forması əsasında bağlanılır və sığorta müqaviləsinin ayrılmaz hissəsi sayılır.

20.2. Sığorta müqaviləsinin bağlanmasından sonra Sığortalı tərəfindən sığorta hadisəsinin baş verməsi ehtimalının qiymətləndirilməsi üzrə vacib məlumatı Sığortaçıya yanlış və ya təhrif olunmuş şəkildə təqdim olunması aşkarlanarsa, və sığorta müddəti ərzində barəsində yanlış və ya təhrif olunmuş məlumatlar verilən hallar ilə əlaqədar olan sığorta hadisəsi baş verərsə, belə faktlar sığorta ödənişinin verilməsindən imtina edilməsinə və müqavilənin etibarsız hesab edilməsinə gətirə bilər.

## 21. SIĞORTA MÜQAVİLƏSİNƏ QƏBUL EDİLMİŞ ƏLAVƏLƏR

Bu Qaydalar əsasında bağlanılmış sığorta müqaviləsinə əlavələr tərəflərin razılığı ilə yazılı şəkildə qəbul edilir, mğqavilənin ayrılmaz tərkib hissəsini təşkil edir və bu Qaydalarda mövcud olan şərtləri dəyişdirə və ya müəyyənləşdirilməyən şərtləri qəbul edə bilər.

## 22. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

Sığorta müqaviləsi ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll olunmalıdır.